# İnsanlarla heyvanların ünsiyyət məkanı

*Azərbaycan təbiəti özünün fauna və flora tərkibinin zənginliyinə görə başqa ölkələrdən fərqlənir. Bizdə həmişə insanların zövq alması, dincəlməsi, faydalanması üçün hər cür bitki və heyvanat aləmi bol olub. Hələ qədim zamanlardan insanlar vəhşi təbiətdən istifadə etmiş, onun hazır məhsullarını mənimsəmiş və təbii sərvətlərə istər-istəməz mənfi təsir göstərmişlər.*













Əvvəlki dövrlərdə bu təsir gözəçarpacaq dərəcədə böyük deyildi, hələ təbiət həyəcan təbilini çalmırdı, amma insanların tələbat və istəkləri artdıqca, təbiət daha artıq istismara məruz qalmağa başladı və bir növ təbiətlə onun istifadəçisi insan arasında təzadlı münasibət yarandı. İnsan daha çox istədikcə və bunun üçün təbiəti özünün qarət hədəfinə çevirdikcə təbiət də xeyirxah simasını dəyişdi, öz qılıncını göstərməyə başladı. Bu gün təbiətlə bağlı kəskin qlobal problemlərin meydana gəlməsini və insanların həyatı üçün təhlükə törədən bir sıra prosesləri buna misal göstərmək olar.

Lakin insanlar tədricən öz səhvlərini başa düşdülər, faydalı, lazımlı olan təbii sərvətləri gələcək nəsillərə ötürmək məqsədilə onları qorumağa başladılar. Bunun üçün bir sıra qoruqlar, yasaqlıqlar yaradıldı.

Bu gün Bakı şəhərində respublikamızın, eyni zamanda bir sıra dünya ölkələrinin faunasının qorunduğu və nümayiş etdirildiyi zoopark fəaliyyət göstərir. Bizi zooparka burada görülən işlər, baş verən dəyişikliklər və sair məsələlərə dair maraq çəkib aparır. Burada hər şey insanda tam fərqli təəssürat yaradır. Efirdə seyr etdiyimiz, jurnal və qəzetlərdə adlarına rast gəldiyimiz bir çox heyvanları canlı surətdə görmək və onlara bu qədər yaxın olmaq necə də maraqlıdır. Zənnimizcə, vaxtaşırı bu heyvanat parkına gəlmək, heyvanların təbii inkişafını izləmək uşaqlar, yeniyetmələr üçün deyil, həm də böyüklər üçün çox faydalı və əyləncəlidir. Çünki düşünəndə ki, bu heyvanlar bizim şüursuz, dilsiz, canlı dostlarımızdır, onların mövcudluğu hər birimizin həyatında olduqca mühüm rol oynayır, ən əsası da, buradakı canlıların bir qismi Qırmızı kitabın nadir, kökü kəsilməkdə olan heyvanlar silsiləsinə aiddir və bu nadir canlıları bir daha görməmək təhlükəmiz var, fikrimizdə daha da qətiləşirik.

**Müsahibimiz zooparkın direktoru Azər Hüseynovdur.** Onunla söhbət əsnasında zooparkın tarixi, burada fəaliyyət göstərən kollektiv, müasir dövrdə görülən işlər və sair məsələlər haqqında ətraflı məlumatlar əldə etdik. Azər müəllim söylədiyi hər bir kəlmənin məsuliyyətini dərk edərək elə danışırdı ki, onun aydın izahatlarından, səmimi nitqindən onun işlədiyi bu müəssisəyə necə bağlı olduğu və buradakı canlıların təəssübünü çəkdiyi çox açıq hiss olunurdu . Bu sadə və səmimi insanda hər şeydən əvvəl heyvanlara göstərilməsi gərəkli olan əsl insani və xeyirxah münasibəti gördük və düşüncəyə qapıldıq. Yəqin ki, hər birimiz öz işimizə belə qayğı və məsuliyyətlə yanaşsaq, hal-hazırda ölkəmizdə üzləşdiyimiz bir çox fəsadları aradan qaldırmaq daha asan olardı.

Azər müəllim ilk öncə milli zooparkımızın yaranma tarixi haqqında məlumat verdi. Mütəxəssislərin fikrincə Bakıda zoopark 1942-ci ilin yanvar ayında yaranmışdır. Lakin aparılan araşdırmalar Bakıda zooparkın 1928-ci ilin 14 dekabrında yaradıl-

dığını qəbul etməyə əsas verir . Keçən əsrin 20-ci illərində Lunaçarski (indiki Nizami) bağında kiçik zooloji guşə fəaliyyət göstərib. O dövrün məlumatları göstərir ki, Azərbaycan faunası keçmiş Sovet ölkələri arasında ən zəngin faunalardan birinə malik olub və bakılı iş adamı SSRİ-nin 8 müxtəlif şəhərində kiçik zooparklar yaradıb. Əvvəllər zoopark Bayıl qəsəbəsində yerləşmiş və yalnız 60-70-ci illərdə ərazinin sürüşmə zonası olması səbəbindən başqa əraziyə köçürülüb. 70-ci illərin sonlarında zooparkın ərazisinin Şəhriyar parkına köçürülməsi haqqında sərəncam verilmiş və ərazisi 45 ha həcmində müəyyən edilmişdir. Azər müəllimin dəfələrlə qeyd etdiyi kimi bütün bu proseslərin həyata keçirilməsində, zooparkımızın genişləndirilməsi və inkişafında ümummilli liderimiz Heydər Əliyevin xidmətləri danılmazdır. Məhz onun daimi qayğısı nəticəsində zooparkımız öz uğurlu aqibətini yaşamışdır. Sonrakı dövrdə artıq 80-cı illərin əvvəllərindən zooparkın tikintisi başlanmış və 1984-cü ildə nəzərdə tutulmuş ərazinin yalnız 2.25 hektarı istifadəyə verilmişdir. 1984-cü ildən hal-hazırda mövcud olduğu yerdə yerləşdirilmişdir. Müəyyən müraciətlərdən sonra 2001-ci ilin noyabrında zoopark üçün əlavə ərazi də verilmişdir. Azər müəllim zooparkda 1995-ci ildən işləyir. Söhbətimiz əsnasında aydın oldu ki, A.Hüseynovun fəaliyyəti dövründə zooparkda çox mühüm tədbirlər həyata keçirilmişdir. Bu tədbirlərin kökündə heyvanların sağlamlığının təmin edilməsi, onların təhlükəsizliyinin qorunması və s. bu kimi mühüm məsələlər durur. Zooparkda xoş bir atmosferin yaradılması üçün hər cür şərait var. Kifayət qədər diqqəti cəlb edən yaşıllıq, hər bir heyvanın növündən , qidalanma xüsusiyyətlərindən asılı olaraq içərisində yerləşdirildiyi qəfəslər və ən əsası bu qəfəslərdəki gözoxşayan, bir-birindən fərqli, maraqlı milli və əcnəbi ölkələrin sərvəti olan heyvanlar. 1995-ci ildə burada cəmi 60 növ 200 baş heyvan olub. Sonrakı dövrdə mütəmadi əmək nəticəsində burada yeni valeriallar, qırqovullar üçün fazanariumlar, balıqlar üçün akvarium, flaminqo evi, soltan toyuqları üçün valerial, baytar müalicəxanası, bir sıra yem anbarları, mənfi dərəcəli soyuducu, maşınların təmiri üçün boks, mərkəzləşmiş istilik sistemi, xırda heyvanları karantində saxlamaq üçün qəfəslər yaradılmış, şirin, canavarın, yenotun saxlandığı qəfəslərin döşəmələri təmir olunmuşdur.

Hal-hazırda Bakı zooparkında 170 növ, 1200-dən yuxarı heyvan, quş, balıq, sürünən saxlanılır. Bu il bir sıra heyvanlardan – poni , xallı maral, canavar, tovuzquşu, qırqovuldan bala alınıb. Zooparkımız dünyanın bir sıra ölkələrinin zooparkları ilə sıx əməkdaşlıq edir, heyvan mübadiləsi aparır. Bu ölkələr sırasında Rusiya , Ukrayna , Belarus, Qazaxıstan , Özbəkistan, Çexiya və s. ölkələri göstərmək olar.1996-cı ildən zoopark Avrasiya Regional Zooparklar və Akvariumlar Assosiasiyasının üzvüdür.

Azər müəllim zooparkla bağlı gələcək planlarından da ürəkdolusu danışdı. Minsk zooparkı ilə bağlanan müqaviləyə əsasən yaxın gələcəkdə Belarus paytaxtına bizdən erkək şir göndərilməsi, əvəzində isə 2 baş Nil timsahı, 2 baş Avropa cüyürü, 2 baş Sibir pişiyi , 2 baş uçan Misir iti, 2 baş nasuxa, 4 baş şinşilla gətirilməsi nəzərdə tutulur. Eyni zamanda Tbilisi zooparkı ilə əməkdaşlıq müqaviləsi bağlanması üçün təşəbbüs göstərilir.Bununla da rəhbərlik 5 baş soltan toyuğu verib, əvəzində 4 baş pavianqo meymunu əldə etmək istəyir.

Sözsüz ki, bütün bu tədbirlər gələcək inkişafın,uğurların təməlidir, əldə olunan müvəffəqiyyətlərlə kifayətlənmək olmaz, hələ qarşıda görüləsi işlərimiz çoxdur, zooparkımızın dünya ölkələrinin ən məşhur, zəngin zooparkları ilə rəqabətə girəcək dərəcədə inkişafı təkcə burada fəaliyyət göstərən zəhmətkeş kollektivin deyil, eyni zamanda hər birimizin istəyidir. Bunun üçün isə dövlət qayğısı olduqca vacibdir. Bu gün Azərbaycanda iqtisadi inkişaf bütün sahələrdə özünü göstərdiyindən, sözsüz ki, biz də ümid edirik ki, milli zooparkımız da bu diqqətdən kənarda qalmayacaqdır. Zooparkın inkişafına qayğı artırılacaq, heyvanların yeri genişləndiriləcək, onların hər cür ehtiyaclarının təmin olunması prosesi gücləndiriləcək və s. bu kimi mühüm tədbirlər həyata keçiriləcəkdir. Azər müəllim həmçinin, zooparkın bağlanması, başqa əraziyə köçürülməsi ilə bağlı məsələlərdən narahatlığını da dilə gətirdi. Əlbəttə, biz də onunla tam razıyıq ki, zooparkın ərazisi indiki mövcud olduğu yerdə saxlanılmalıdır, ərazinin hər hansı ucqar, mərkəzdən uzaq yerə köçürülməsi, xüsusilə, buranın daimi tamaşaçısı olan uşaqlarımız üçün böyük çətinliklər yarada bilər.

***Bakı zooparkından xoş təəssüratla ayrıldıq və inanırıq ki, hər yeni gəlişimizdə burada maraqlı yeniliklərlə qarşılaşacağıq. Sonda isə bunu qeyd etmək istəyirik ki, hazırkı dövrdə gənclərimizin, yeniyetmələrimizin bütün vaxtlarını müxtəlif kompyuter oyunları, lazımsız internet saytları qarşısında keçirib, dünya ilə virtual əlaqə saxlamaqlarındansa, milli zooparkımıza gəlib, vaxtlarının bir qismini burada keçirmələri, heyvanlarla canlı ünsiyyətdə olmaları onların inkişafına, dünyagörüşlərinin formalaşmasına daha müsbət təsir göstərə bilər.***

**Günel ƏKBƏROVA**